# Qaranlıqdan işığa aparan Milli Qurtuluşun təntənəsi

*Xalqların həyatında elə qərar və dönüş nöqtələri olur ki, həmin məqamlar tarixdə silinməz iz buraxır. Azərbaycan xalqı üçün belə tarixi və taleyüklü dönüş anlarından biri də 15 İyun - Milli Qurtuluş Günüdür. Bu əlamətdar tarix müstəqilliyini yeni qazanan, lakin onu itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycanın xilasa doğru atdığı qətiyyətli addımın başlanğıcıdır. Milli Qurtuluş Günü ölkəni siyasi anarxiyadan, vətəndaş qarşıdurmasından, parçalanmadan xilas edən, dövlətçiliyin təməlini yenidən möhkəmləndirən bir liderin - Ulu Öndər Heydər Əliyevin xalqın təkidli çağrışı ilə yenidən hakimiyyətə qayıtdığı gündür.*

Heydər Əliyevin adı Azərbaycan tarixində görkəmli dövlət xadimi, həm də xalqını böyük təhlükələrdən xilas edən xilaskar kimi qızıl hərflərlə yazılıb. Onun Sovet İttifaqı dövründə - 1969-cu ildən 1982-ci ilə qədər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində keçirdiyi illər ölkənin siyasi, iqtisadi və sosial inkişafında dönüş nöqtəsi hesab olunur.

Heydər Əliyev SSRİ-nin mürəkkəb və mərkəzləşdirilmiş idarəetmə sistemində Azərbaycanı layiq olduğu mövqeyə yüksəltmək üçün mühüm və qətiyyətli addımlar atdı. Onun rəhbərliyi dövründə Azərbaycanın sənaye potensialı əhəmiyyətli dərəcədə artırıldı, Bakı və digər böyük sənaye mərkəzlərində yeni zavodlar, fabriklər və istehsalat sahələri yaradıldı. Neft sənayesi, kimya və maşınqayırma sahələri inkişaf etdirildi, bu da Azərbaycanın Sovet İttifaqı daxilində strateji sənaye bölgəsi kimi mövqeyini möhkəmləndirdi.

Mədəniyyət sahəsində də Heydər Əliyev milli dəyərlərin qorunması və inkişafına xüsusi diqqət ayırdı və Azərbaycan ədəbiyyatının, musiqisinin, teatr və incəsənətinin inkişafı üçün şərait yaratdı. Bakı, Gəncə və digər şəhərlərdə yeni mədəniyyət müəssisələri açıldı, gənc istedadların yetişdirilməsinə dəstək verildi. Eyni zamanda, milli dil və mədəniyyətin qorunması üçün ciddi tədbirlər görülmüş, Azərbaycan dilinin rəsmi və tədris sahəsində mövqeyi gücləndirilmişdir.

Siyasi sahədə Heydər Əliyev respublikanın nüfuzunu artırdı, sovet mərkəzi hakimiyyəti ilə səmərəli dialoq quraraq Azərbaycanın maraqlarını qorudu. Onun dövründə Azərbaycan SSR-nin Sovet İttifaqı daxilindəki rolu və çəkisi xeyli yüksəldi. Bu, respublikanın özünəməxsusluğunun qorunması, milli həmrəyliyin möhkəmləndirilməsi baxımından çox önəmli idi. Bütün bu nailiyyətlərin təməlində Heydər Əliyevin uzaqgörən, məqsədyönlü və milli maraqlara sadiq siyasəti dayanırdı. Onun SSRİ dövründəki hakimiyyəti Azərbaycanın gələcək müstəqillik illərində daha da möhkəmlənəcək dövlətçilik ənənələrinin əsasını qoydu.

1991-1993-cü illər Azərbaycanın müasir tarixində sabitliyin pozulduğu, avantürist siyasi eksperimentlərin hökm sürdüyü, özbaşınalıq və idarəolunmazlığın yayıldığı bir dövr kimi yadda qaldı. Yeni yaranmış müstəqil dövlətin başında dayanan şəxslərin siyasi uzaqgörənlikdən, hadisələri analiz etmək və onlardan nəticə çıxarmaq bacarığından məhrum olması vəziyyəti daha da gərginləşdirirdi. Onlar nəinki böhranlı şəraitdən çıxış yolu tapa bilmirdilər, hətta situasiyalara belə adekvat reaksiya verə bilmirdilər. Nəticədə, həmin dövrdə hakimiyyətdə olan qüvvələr xalqın gözündə etibarını itirdi, cəmiyyətin dəstəyindən məhrum olurdu.

Heydər Əliyevin rəhbərliyi ilə ölkədə sosial-iqtisadi və siyasi sahələrdə genişmiqyaslı islahatlar aparıldı. Bu islahatlar sayəsində Azərbaycanın müdafiə qüvvələri gücləndirildi, milli ordunun yaradılması ilə vətənimizin müdafiəsi təmin olundu. Bölgələrdə baş verən separatçı qiyamlara qarşı sərt tədbirlər görüldü. Bu, vahid dövlətçiliyin qorunmasına və ölkədə ərazi bütövlüyünün təmin edilməsinə yönəlmişdi. Eyni zamanda, ölkəmizin diplomatik əlaqələri aktivləşdi və 1994-cü ilin may ayında atəşkəs razılaşması imzalandı ki, bu da regionda sabitliyin əsasını qoydu.

Atəşkəsin əldə olunması Azərbaycanın beynəlxalq aləmdə mövqeyini möhkəmləndirdi, ölkəmizin iqtisadi imkanlarının artmasına və dünya bazarına çıxışına şərait yaratdı. Bunun nəticəsi olaraq, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı - bu müqavilə Azərbaycanın enerji sektorunda strateji inkişaf yolunun başlanğıcı oldu. Heydər Əliyevin hazırladığı bu strategiya ölkənin iqtisadiyyatını yeni səviyyəyə qaldırdı. Eyni zamanda, ulu öndərin təşəbbüsü ilə Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi beynəlxalq enerji layihələri həyata keçirildi, Azərbaycanın qədim İpək Yolunun bərpasında rolu önəmli oldu. Bu layihələr sayəsində ölkəmiz qlobal enerji xəritəsində mühüm mövqe qazandı.

Heydər Əliyevin liderliyilə baş verən bu dönüş nöqtələri ölkəmizin müstəqilliyini möhkəmləndirdi, onun davamlı inkişafına zəmin yaratdı və Azərbaycanın siyasi və iqtisadi mövqeyini bərpa etdi. Bu dövrdə Azərbaycanın dövlətçilik ənənələri qorundu, onun suverenliyi və azadlığı əbədiləşdirildi. Ümummilli liderin gördüyü işlər xalqımızın taleyində əvəzsiz rol oynadı və onu böyük qurtuluş yoluna çıxardı.

Bu gün milli qurtuluş ideologiyasının zəfəri müstəqil respublikamızın dayanıqlı inkişafında özünü aydın göstərir, dünya arenasında Azərbaycanın nüfuzu isə durmadan yüksəlir. Ulu öndər Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi dəyişikliklər dövlətimizin möhkəmlənməsinə, sivil dünya ilə sıx inteqrasiyasına və xalqımızın strateji maraqlarına uyğun müasir cəmiyyətin qurulmasına mühüm töhfə verdi. Beləliklə, bu önəmli tarixi gün Milli Qurtuluş Günü kimi 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd olunur.

Əldə olunan bütün nailiyyətlərin təməlində Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi xətt dayanır və bu xətti Prezident İlham Əliyevin uğurla davam etdirməsi Azərbaycanın bu günkü mövqeyini daha da gücləndirib. Azərbaycanın gələcəyi daha parlaq və firavan perspektivlərə malikdir.

Prezident İlham Əliyevin siyasətinin uğurlu icrası nəticəsində Azərbaycan sürətlə inkişaf edən, müasirləşən və beynəlxalq arenada nüfuzu günü-gündən artan bir dövlətə çevrilib. Ötən illər ərzində ölkəmiz iqtisadi sahədə böyük nailiyyətlər qazanıb və bu uğurlar yalnız Azərbaycan xalqı tərəfindən deyil, dünya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Ölkəmizə gələn hər bir qonaq Azərbaycan Respublikasının inkişafına heyran qalır. Xalqımız bu gün inamla bilir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyalarının işığında, Prezident İlham Əliyevin liderliyi ilə daha böyük uğurlara imza atacaq.

Xarici siyasətdə balanslı mövqe tutularaq Azərbaycan beynəlxalq aləmdə etibarlı və nüfuzlu tərəfdaş kimi tanınmış, ölkənin diplomatik əlaqələri genişlənib və möhkəmlənib. Müstəqil Azərbaycan dövləti bu gün beynəlxalq aləmdə güclü, etibarlı və nüfuzlu tərəfdaş kimi tanınırsa, bu, 15 iyun Qurtuluş ideologiyasının nəticəsidir.

Azərbaycanın iqtisadi, siyasi və hərbi gücü ildən-ilə artmış, nəticədə 2020-ci ildə torpaqlarımız işğaldan azad olunaraq ölkənin ərazi bütövlüyü bərpa edilmişdir. Bu tarixi zəfərin əsas dayaqlarından biri məhz 15 iyun Qurtuluş ideologiyasıdır. Bu ideologiya birlik ruhu, liderə inam və milli dövlətçilik prinsipləri üzərində qurulmuş və Azərbaycanın uğurlarının təməlini təşkil etmişdir.

15 İyun - Milli Qurtuluş Günü Azərbaycan xalqının öz dövlətinə və gələcəyinə sahib çıxmaq iradəsinin təntənəsidir. Bu gün hər bir azərbaycanlının qürurla xatırladığı və yüksək qiymətləndirdiyi önəmli tarixdir. Çünki məhz bu gün bizə yalnız sabitlik və inkişaf deyil, həm də ümid, əmin-amanlıq və gələcəyə inam bəxş olunmuşdur.

Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası və müdrik siyasəti sayəsində Azərbaycanın müstəqilliyi qorunub saxlanıldı, dövlət daha da gücləndi. 15 iyun xalqla liderin tarixi qovuşmasının, milli ruhun və dövlətçilik iradəsinin əbədiləşdiyi, Azərbaycanın gələcək inkişaf yolunun təməlində dayanan mühüm gündür.

**Azər ALLAHVERƏNOV,**
**Milli Məclisin deputatı.**